Tarix və onun problemləri, №1 2010

U.M.PAŞAYEVA
*BDU, «Azərbaycanşünaslıq» ETM-nin böyük elmi işçisi*

# MDB ÖLKƏLƏRINDƏ ƏHALININ TƏKRARISTEHSALI VƏ DEPOPULYASIYASI BARƏDƏ

Keçmiş sovet məkanında yerləşən dövlətlərin əhali problemləri arasında onun təkraristehsalı və depopulyasiyası əsas yer tutur. Statistik rəqəmlər keçmiş sovet respublikalarında bu problemin eyni səviyyədə olmadığını göstərir. Bu baxımdan problemin müqayisəli təhlil əsasında öyrənilməsinə ehtiyac duyulur. Qeyd edək ki, əhalinin təkraristehsalı doğum və ölüm nəticəsində nəsil dəyişmə prosesində onun sayının və tərkibinin daima yeniləşməsidir (1,s.389-390). Deməli, əhalinin təkraristehsalı onun aramsız inkişafında özünüqoruma prosesidir və məhz o, demoqrafiyanın bir elm kimi predmetini təşkil edir.

Keçmiş SSRİ-də əhalinin təkraristehsalı böhranı onun dağılmasından xeyli əvvəl yaranmışdı. Belə ki, Rusiya, Ukrayna və Belorusda əhalinin təbii artımının uzun müddət müsbət qalması bu ölkələrin əhalisinin yaş strukturunun xüsusiyyətləri ilə bağlı idi. XX əsrin 70-80-ci illərində həmin ölkələrdə yaşlıların sayı (XX əsrin ilk rübündə doğulmuş və II Dünya müharibəsi zamanı böyük itkilər vermiş nəsil) qeyri-normal dərəcədə aşağı olmuşdur. Buna görə də ölümün mütləq sayı doğumla müqayisədə o qədər də çox deyildi (2,s.176-186).

1980-90-cı illərdə baş verən siyasi hadisələr-1991-ci ildə SSRİ-nin dağılması və müstəqil dövlətlərin yaranması-əhalinin təkraristehsalı böhranını yaxınlaşdırmış oldu. 1991-ci ildə Ukraynada, 1992-ci ildə Rusiyada, 1993-cü ildə Belorusda, 1998-ci ildə Moldovada təbii artımın mənfi əmsalı qeydə alındı. Hal-hazırda Gürcüstanda bu göstərici mənfiyə keçmək hüdudundadır, Ermənistanda sürətlə azalır, Azərbaycanda isə hələlik müsbətdir.

Mərkəzi Asiya ölkələrində isə təbii artım səviyyəsi digər ölkələrlə müqayisədə yüksək olsa da, əvvəlki illərə nisbətən burada da əhalinin təbii artım səviyyəsində azalma müşahidə olunur.

Təbii artım səviyyəsinin azalması zaman etibarilə bazar islahatları ilə üst-üstə düşmüşdür.

Əsas doğum ənənələrinin iqtisadi və ya siyasi konyuktura ilə nisbətən zəif əlaqəsi və onların daha dərin təkamül şərtliyi MDB-nin yuxarıda qeyd olunan dövlətlərində onların tezliklə dəyişəcəyinə və heç olmasa nəsillərin sadə yerdəyişməsini təmin edə biləcək səviyyədə doğumun artmasına ümid vermir (bir qadının payına 2,1-2,2 doğum). Ölümün aşağı düşməsinə nail olunsa belə, bu, yenə də əvvəlki kimi əhalinin azalmaqda olan artım göstəricilərini dəyişə bilməyəcək.

Mərkəzi Asiya ölkələrində təbii artım dayanmır, bunların əksəriyyətində bu göstərici yüksəkdir. Lakin buna baxmayaraq 1990-cı illərdən başlayaraq burada da təbii artım səviyyəsi ciddi şəkildə aşağı düşməkdədir. Qeyd edək ki, XX əsrin ikinci yarısında həmin ölkələrin əhalisi son dərəcə sürətlə artırdı. 1950 və 2000-ci illər arasında Tacikistan, Türkmənistan və Özbəkistanda əhali 4 dəfə artmışdı. Qazaxıstan və Qırğızıstanda yerli olmayan əhalinin çoxluğu onun artım səviyyəsinə öz təsirini göstərmişdir. Digər Mərkəzi Asiya respublikaları ilə müqayisədə burada əhalinin artımı az olmuşdur. Ancaq Mərkəzi Asiyanın yerli əhalisinin sayı bütün ölkələrdə sürətlə artırdı. 1959 - 1989-cu illər əhali siyahıyaalınmaları arasındakı 30 il ərzində Qazaxıstanda qazaxların sayı 2,3 dəfə, Qırğızıstanda qırğızların və Türkmənistanda türkmənlərin sayı 2,7 dəfə, Özbə-

kistanda özbəklərin sayı 2,8 dəfə, Tacikistanda taciklərin sayı 3 dəfə artmışdır. Belə demoqrafik artım Mərkəzi Asiya ölkələrinin əksəriyyətinin iqtisadi ehtiyatları (əsasən aqrar iqtisadiyyata arxalanan ölkələr üçün mühüm olan torpaq və su) və ətraf mühit üçün çətinlik yaradır, onların iqtisadi inkişafını ləngidirdi. Buna görə də burada doğumun azalması və əhalinin təbii artımının aşağı enməsini demoqrafik dinamikanın pozitiv ənənələrinin təzahürü kimi qiymətləndirirlər (3,s.37;9,s.5).

SSRİ-nin Ümumittifaq siyahıyaalınmasının nəticələri göstərir ki, 1979-cu ildə Azərbaycan SSR-də əhalinin sayı 6.028 min , 1989-cu ildə isə 7.038 min yəni, 1.010 min nəfərə qədər artmışdır (5,s.17; 6,s.15). Lakin sonrakı illərdə burada da əhalinin artım səviyyəsinin azalması müşahidə edilir.

Belə ki, 1995-2005-ci illərdə Azərbaycanda əhalinin təbii artımının ümumi əmsalı 92.487 min nəfərdən 89.939 min nəfərə qədər azalmışdır. Azərbaycanda doğumun səviyyəsinin azalmasına Qarabağ müharibəsi, eyni zamanda əməkqabiliyyətli və əksəriyyəti ailə qurmaq yaşında olan kişi əhalinin ölkədən kütləvi şəkildə miqrasiyası səbəb olmuşdur (4, s.74) (Cədvəl 1).

**Cədvəl 1**

**1995 -2005-ci illərdə Azərbaycanda doğumun, ölümün və təbii artımın ümumi əmsalı**

| İllər | Nəfər | | | əhalinin hər 1000 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | Doğulanlar | Ölənlər | Təbii artım | Doğulanlar | Ölənlər | Təbii artım |
| 1995 | 143315 | 50828 | 92487 | 18,9 | 6,7 | 12,2 |
| 1996 | 129247 | 48242 | 81005 | 16,9 | 6,3 | 10,6 |
| 1997 | 132052 | 46962 | 85090 | 17,1 | 6,1 | 11,0 |
| 1998 | 123996 | 46299 | 77697 | 15,9 | 5,9 | 10,0 |
| 1999 | 117539 | 46295 | 71244 | 14,9 | 5,9 | 9,0 |
| 2000 | 116994 | 46701 | 70293 | 14,8 | 5,9 | 8,9 |
| 2001 | 110356 | 45284 | 65072 | 13,8 | 5,7 | 8,1 |
| 2002 | 110715 | 46522 | 64193 | 13,8 | 5,8 | 8,0 |
| 2003 | 113467 | 49001 | 64466 | 14,0 | 6,0 | 8,0 |
| 2004 | 131609 | 49568 | 82041 | 16,1 | 6,1 | 10,0 |
| 2005 | 141901 | 51962 | 89939 | 17,2 | 6,3 | 10,9 |

SSRİ-nin dağılmasından sonrakı ilk on illik artıq müstəqil olan ölkələrin əhalisinin ümumi sayının azalması dövrüdür. Ölənlərin sayı doğulanların sayına nisbətən artmaqdadır, bunun da nəticəsində əks təbii artım və ya əhalinin təbii azalması prosesi qalmaqdadır. Bütövlükdə MDB ölkələri üzrə mənfi hal miqrasiyanın artmasıdır (MDB ölkələri ərazisindən gedən buraya gələnlərdən çoxdur). Keçmiş SSRİ ölkələrinin əksəriyyətində mükəmməl əhali statistikasının olmasına baxmayaraq,siyahıyaalınma nəticələri göstərir ki, bu ölkələrin əksəriyyətində əhalinin cari hesablanması o qədər də yaxşı vəziyyətdə deyil. Buna görə də əvvəllər çap olunmuş məlumatlara hal-hazırda Milli Statistika Komitələrində yeni siyahıyaalınmanın nəticələri əsasında düzəlişlər edilir (Cədvəl 2).

**Cədvəl 2**

**1979 və 1989-cu il Ümumittifaq siyahıyaalınma və MDB və Baltikyanı ölkələr üzrə ilk siyahıyaalınma materialları əsasında əhalinin sayı (min nəfər)**

| Ölkələr | əhalinin sayı | | MDB-də ilk siyahıyaalınma illəri | əhalinin sayı |
|---|---|---|---|---|
| | 1979 | 1989 | | |
| Azərbaycan * | 6,028 | 7,038 | 1999 | 7,953.400 |

| | | | | |
|---|---|---|---|---|
| Belorus | 9,560 | 10,200 | 1999 | 10,045.000 |
| **Ermənistan** | 3,031 | 3,288 | 2001 | 3,213.011 |
| **Estoniya** | 1,466 | 1,573 | 2000 | 1,370.052 |
| **Gürcüstan** | 5,015 | 5,443 | 2002 | 4,369.579 |
| **Qazaxıstan** | 14,684 | 16,536 | 1999 | 14,953.1 |
| **Qırğızıstan** | 3,529 | 4,290 | 1999 | 4,823 |
| **Latviya** | 2,521 | 2,680 | 2000 | 2,375.300 |
| **Litva** | 3,398 | 3,690 | 2001 | 3,484.000 |
| Moldova | 3,947 | 4,338 | 2004 | 3,383.322 |
| **Özbəkistan** | 15,391 | 19,905 | 2000 | 2,448.77 |
| Rusiya Federasiyası | 137,551 | 147,400 | 2002 | 145,165.000 |
| **Tacikistan** | 3,801 | 5,109 | 2000 | 6,127.500 |
| **Türkmənistan** | 2,759 | 3,534 | 1995 | 4,483.3 |
| Ukrayna | 49,755 | 51,707 | 2001 | 48,507.924 |

*15 yanvar 2010 - 9 mln.

MDB və Baltikyanı ölkələrdə əhalinin ilk siyahıyaalınmasının nəticələrini nəzərə almaqla əhalinin sayı haqqında rəsmi məlumatı təqdim etməyə çalışaq.90-cı illərdə müşahidə olunan millətlərarası münaqişələrin yaranması, ərazi iddiaları, elan olunmayan müharibələr keçmiş SSRİ respublikalarında əhalinin azalmasına səbəb olmuşdur (7,s.169-170).

MDB ölkələrinin ümumi əhalisi 1994-cü ilə kimi artmış, 1995-ci ildən isə azalmağa başlamışdır. 2004-cü ildə isə bu, təqribən 1989-cu ildə - son sovet siyahıyaalınmasının nəticələri ilə eyni olmuşdur. Amma Birliyin ayrı-ayrı ölkələrində əhalinin dinamik inkişafı ciddi şəkildə fərqlənmişdir.

MDB ölkələrində əhali arasında doğumun, ölümün və təbii artımın ümumi əmsalı aşağıdakı cədvəldə öz əksini tapmışdır (4,s.644) (Cədvəl 3). 1995-ci ildə statistik rəqəmlərə görə doğulanların sayı 220,4 min, ölənlərin sayı isə 117,6 min nəfər olmuşdur. Bu iki rəqəmi müqayisə etsək, belə bir nəticəyə gəlirik ki, MDB ölkələrində təbii artımın ümumi əmsalı 102,8 min nəfər təşkil etmişdir.

**Cədvəl 3**

**MDB ölkələrinin əhalisi arasında doğumun, ölümün və təbii artımın ümumi əmsalı (əhalinin hər min nəfərinə)**

| | illər | Azərbaycan | Belarus | Ermənistan | Gürcüstan | Qazaxıstan | Qırğızıstan | Moldova | Özbəkistan | Rusiya Federasiyası | Tacikistan | Türkmənistan | Ukrayna | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Doğulanların sayı | 1995 | 18,9 | 9,9 | 13 | 11,9 | 17,5 | 25,6 | 13,0 | 29,8 | 9,3 | 33,6 | 28,3 | 9,6 | 220,4 |
| | 2000 | 14,8 | 9,4 | 9,0 | 11,0 | 14,9 | 19,7 | 10,2 | 21,3 | 8,7 | 27,0 | ... | 7,8 | 153,8 |
| | 2003 | 14,0 | 9,0 | 11,2 | 10,7 | 16,6 | 20,9 | 10,1 | 19,8 | 10,2 | 27,1 | ... | 8,5 | 158,1 |
| | 2004 | 16,1 | 9,1 | 11,7 | 11,5 | 18,2 | 21,6 | 10,6 | 20,8 | 10,4 | 26,6 | ... | 9,0 | 165,6 |
| | 2005 | 17,2 | 9,2 | 11,7 | ... | 18,4 | 21,4 | 10,5 | 20,5 | 10,2 | ... | ... | 9,0 | 128,1 |
| Ölənlərin Sayı | 1995 | 6,7 | 13,1 | 6,6 | 10,4 | 10,7 | 8,0 | 12,2 | 6,4 | 15,0 | 6,1 | 7,0 | 15,4 | 117,6 |
| | 2000 | 5,9 | 13,5 | 6,3 | 10,7 | 10,1 | 6,9 | 11,3 | 5,5 | 15,3 | 4,7 | ... | 15,3 | 105,5 |
| | 2003 | 6,0 | 14,5 | 8,1 | 10,6 | 10,4 | 7,1 | 11,9 | 5,3 | 16,4 | 5,1 | ... | 16,0 | 111,4 |
| | 2004 | 6,1 | 14,3 | 8,0 | 11,3 | 10,1 | 6,9 | 11,6 | 5,0 | 16,0 | 4,4 | ... | 16,0 | 109.7 |
| | 2005 | 6,3 | 14,5 | 8,2 | ... | 10,4 | 7,2 | 12,4 | 5,3 | 16,1 | ... | ... | 16,6 | 97,0 |

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təbii artımın ümumi əmsalı | 1995 | 12,2 | -3,2 | 6,4 | 1,5 | 6,8 | 17,6 | 0,8 | 23,4 | -5,7 | 27,5 | 21,3 | -5,8 | |
| | 2000 | 8,9 | -4,1 | 2,7 | 0,3 | 4,8 | 12,8 | -1,1 | 15,8 | -6,6 | 22,3 | ... | -7,5 | |
| | 2003 | 8,0 | -5,5 | 3,1 | 0,1 | 6,2 | 13,8 | -1,8 | 14,5 | -6,2 | 22,0 | ... | -7,5 | |
| | 2004 | 10,0 | -5,2 | 3,7 | 0,2 | 8,1 | 14,7 | -1,0 | 15,8 | -5,6 | 22,4 | ... | -7,0 | |
| | 2005 | 10,9 | -5,3 | 3,5 | ... | 8,0 | 14,2 | -1,9 | 15,2 | -5,9 | ... | ... | -7,6 | |

Statistik rəqəmlər göstərir ki, 12 ölkədən 7-sində əhali azalmışdır. Əhalinin azalması daha çox Moldova, Qazaxıstan, Gürcüstan və Ukraynada müşahidə olunur.

Depopulyasiya* edən ölkələrdə əhalinin sayının dinamika komponentlərinin əlaqəsi müxtəlif olmuşdur. Rusiya və Belorusda əks təbii artım müsbət miqrasiya artımı hesabına qismən tənzimlənmişdir. Ukrayna və Moldovada isə əksinə, əks təbii artımın güclü miqrasiya axını ilə birləşməsi əhalinin ümumi azalmasını sürətləndirmişdir. Təbii artımın az, hətta sıfıra yaxın olduğu Ermənistan və Gürcüstanda əhalinin azalmasının əsas səbəbi miqrasiya axını olmuşdur. Ermənistandan 250 min nəfər azərbaycanlının, Qazaxıstanda isə müsbət təbii artımın olmasına baxmayaraq, emiqrasiyanın yüksək intensivliyi əhalinin sayının azalması ilə nəticələnmişdir.

Digər MDB ölkələri ilə müqayisədə Azərbaycan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistanda əhalinin artımı davam edir. Lakin, cədvəl 3-dən də göründüyü kimi, həmin ölkələrdə də əhalinin artımı digər illərlə müqayisədə azalmaqdadır. Buna təbii artımla yanaşı miqrasiya axını da təsir göstərir (12) (Cədvəl 4).

**Cədvəl 4**

**MDB və Baltikyanı ölkələr üzrə əhalinin sayı (min nəfər)**

| Ölkələr | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 7, 644 | 8,016 | 8,081 | 8,141 | 8,203 | 8,266 | 8,347 |
| Belarus | 10,210 | 10,019 | 9,990 | 9,951 | 9,899 | 9,849 | 9,800 |
| Ermənistan | 3,754 | 3,803 | 3,802 | 3,213 | 3,210 | 3,212 | 3,216 |
| Estoniya | 1,448 | 1,372 | 1,367 | 1,361 | 1,356 | 1,351 | 1,348 |
| Gürcüstan | 4,794 | 4,435 | 4,401 | 4,372 | 4,343 | 4,315 | 4,289 |
| Qazaxıstan | 16,679 | 14,900 | 14,800 | 14,851 | 14,867 | 14,951 | 15,075 |
| Qırğızıstan | 4,483 | 4,900 | 4,900 | 4,947 | 4,984 | 5,037 | 5,093 |
| Latviya | 2,501 | 2,382 | 2,364 | 2,346 | 2,331 | 2,319 | 2,306 |
| Litva | 3,643 | 3,512 | 3,487 | 3,476 | 3,463 | 3,446 | 3,425 |
| Moldova | 4,348 | 3,644 | 3,635 | 3,628 | 3,618 | 3,607 | 3,600 |
| Özbəkistan | 22,563 | 24,500 | 24,800 | 25,116 | 25,428 | 25,707 | 26,021 |
| Rusiya Federasiyası | 148,460 | 146,890 | 146,304 | 145,649 | 144,964 | 144,168 | 143,474 |
| Tacikistan | 5,786 | 6,100 | 6,200 | 6,376 | 6,507 | 6,640 | 6,780 |
| Türkmənistan | 4,481 | 4,800 | 4,800 | 4,474 | 4,530 | 4,582 | 4,636 |
| Ukrayna | 51,300 | 49,115 | 48,664 | 48,241 | 47,823 | 47,442 | 47,101 |

Qeyd edək ki, cari hesabat və əhali siyahıyaalınmasının nəticələri haqqında məlumatların çox vaxt tam üst-üstə düşməməsi səbəbindən, MDB ölkələrinin əhalisi barədə məlumatlarda da fərqliliklər müşahidə edilir. Real miqrasiya potensialını qiymətləndirmək üçün bir meyar da nəzərə alınmalıdır. MDB - nin hər bir ölkəsi üçün proqnoz hesablamaları Milli Statistika Komitəsinin məlumatlarına əsasən aparılan və əhalinin

---

* Depopulyasiya - hər hansı dövlətin və ərazinin əhali artımının azalması nəticəsində növbəti nəsillərin sayı əvvəlkilərdən əhəmiyyətli dərəcədə az olur ki, bu da əhalinin sayında sistematik azalmaya səbəb olur (ölüm doğumu üstələyir, emiqrasiya artır, insan itkisinin çox olmasına səbəb hadisələr baş verir – məsələn, müharibə).

sayının 2010-cu il iyulun 1-nə nəzərdə tutulan vəziyyətinə görə qiymətləndirilmişdir. Eyni zamanda, əvvəlki dövrlərdə olduğu kimi retrospektiv hesablamalar da aparılmışdır.

2009-cu il üçün əhalinin ümumi sayının nəticələrini əks etdirən BMT-nin proqnozu ilə MDB-nin Dövlətlərarası Statistika Komitəsinin təqdim etdiyi məlumatları müqayisə etsək, rəqəmlərdəki fərqlərin, məlumat mənbələrindəki fərqlərlə bağlılığını görərik. Son 5-10 il üçün əhalinin artım komponentləri haqqında məlumatlar olmadıqda BMT-nin ekspertləri bütün mümkün məlumatlara əsaslanaraq əlavə hesablamalar aparırlar. Bu zaman bu məlumatlar tamlığına, dəqiqliyinə və səhihliyinə görə dəyərləndirilir və lazım gəldikdə, müəyyən düzəlişlər edilir (8,s.10) (Cədvəl 5).

**Cədvəl 5**

**2009-cu il üçün MDB ölkələri əhalisinin sayı (min nəfər və %-lə)**

| Ölkələr | BMT-nin proqnozu, 1 iyul 2009-cu ilədək | MDB-nin Dövlətlərarası Statistika Komitəsi, 1 yanvar 2009-cu ilədək |
|---|---|---|
| Azərbaycan | 8832 | 8700 |
| Belorus | 9634 | 9689 |
| Ermənistan | 3083 | 3230 |
| Gürcüstan | 4260 | 4395 |
| Qazaxıstan | 15637 | 15800 |
| Qırğızıstan | 5482 | 5300 |
| Moldova | 3604 | 3581 |
| Özbəkistan | 27488 | 27400 |
| Rusiya Federasiyası | 140874 | 141887 |
| Tacikistan | 6952 | 7300 |
| Türkmənistan | 5110 | 6746 |
| Ukrayna | 45708 | 46129 |
| Cəmi: | 276664 | 280157 |

BMT-nin ekspertləri 2008-ci ilin 21-ci baxış dövründə əvvəlki hesablama dövrlərində olduğu kimi daha mükəmməl olan bir neçə variantı (səkkiz) nəzərdən keçirmişlər. Hal-hazırda əsas hesablama nəticələri doğumun dəyişməsi haqqında ehtimallara (aşağı, orta, yüksək və daim yüksək) görə bir-birindən fərqlənən dörd variant üzrə təqdim edilmişdir. Qeyd edək ki, bu variantlarda ölüm və miqrasiyaya («normal miqrasiya») görə təxminlər üst-üstə düşür («normal ölüm») (10,s.9).

Bütün MDB ölkələri ağır demoqrafik böhran keçirir. Geniş kütlə bugünkü böhranın yaranmasının əsas səbəbini SSRİ-nin dağılmasında və bundan sonra baş vermiş iqtisadi və siyasi islahatlarda görürlər. İqtisadi və sosial vəziyyətin ağırlığı, son iyirmi ili müşayiət edən dəyişikliklər və islahatları əlbəttə ki, səbəb kimi qeyd etmək lazımdır. Lakin bugünkü böhran daha dərin köklərə malikdir. Bu bütün dünya üçün ümumi olan və demoqrafik dəyişiklikləri şərtləndirən fundamental təkamül dəyişmələri, eyni zamanda SSRİ-nin son onilliklərində, yəni durğunluq dövründə formalaşmış qeyri-müəyyən demoqrafik ənənələrlə bağlıdır.

Beləliklə, MDB ölkələrində əhalinin təkraristehsalı böhranı, bu ölkələrin əksəriyyətində depopulyasiya probleminin yaranması ilə müşayiət olunur ki, bu da təcili tədbirlərin görülməsini tələb edir.

### ƏDƏBİYYAT:

1.Медков В.М. Демография: Учебник.-М.:ИНФРА-М,2003-544с.- (Серия «Высшее образование»)
2.Зайончковская Ж. Миграционные тренды в СНГ: итоги десятилетия // Миграция в СНГ и Балтии: через различия проблем к общему информационному пространству. М., Адамант, 2001:г.
3.Тенденции в области миграции в странах Восточной Европы и Центральной Азии. Обзор за 2001-2002 годы. МОМ, 2002: г.
4. Azərbaycanın Statistik Göstəriciləri. B.: 2007, "Səda" nəşriyyatı, 728 s.
5.Население СССР. По данным Всесоюзной переписи населения 1979 года. М.: Политиздат. 1980 г.
6.Население СССР. По данным Всесоюзной переписи населения 1989 года. М.: «Финансы и статистика»,1991 г.
7.Население России 2002. Десятый ежегодный демографический доклад. М., КДУ, 2004:г.
8.Щербакова Е.Мировой демографический барометр
**http://demoscope.ru/weekly/2009/0371/barom01.php**
9.Вишневский А. Демографический кризис в странах СНГ «Население и Общество». М., 2005 г.
10. World Population Prospects: The 2008 Revision, Highlights. - New York, 2009 г.. **http://www.un.org/esa/population/publications/wpp2008/WPP2008_Highlights_rev.pdf** /**Демоскоп: Weekly № 371-372/.**
11.Народное хозяйство СССР в 1990 г. Статистический ежегодник.М.:1991 г.
12.Демографические показатели по 15 новым независимым государством. Приложение. Демоскоп **Weekly**. Электронная версия бюллетеня «Население и Общество».

**ПАШАЕВА У.М.**
***ст.н.с.Отделения «Азербайджанцы мира» НИЦ «Азербайджановедения» БГУ***

### О ВОСПРОИЗВОДСТВЕ И ДЕПОПУЛЯЦИИ НАСЕЛЕНИЯ В СТРАНАХ СНГ.

Воспроизводство и депопуляция населения занимает особое место в демографических исследованиях. В настоящей статье прослеживаются причины естественного роста, рождаемость и смертность в странах СНГ.

**PASHAYEVA U.M.**
***science assistant Department "International Azerbaijanis"Azerbaijan Studies Center, BSU.***

### REPRODUCTION AND DEPOPULATION IN THE COUNTRIES OF CIS.

Reproduction and depopulation of population is takes important place in demographics researches. In present article describes reasons of natural growth birth rate and death rate in the countries of CIS.

***Rəyçilər: t.e.n.H.O.Əhmədov, t.e.d.R.C.Süleymanov.***
***BDU-nun Tarix fakültəsi «Azərbaycanşünaslıq» Elmi Tədqiqat Mərkəzinin «Dünya azərbaycanlıları» bölməsinin 04 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***